**Azərbaycan Respublikası Maliyyə Monitorinqi Xidmətinin fəaliyyətinin təmin edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidmətinin fəaliyyətini təmin etmək məqsədilə **qərara alıram:**

1. "Azərbaycan Respublikası Maliyyə Monitorinqi Xidmətinin Nizamnaməsi" təsdiq edilsin (əlavə olunur).

2. "Azərbaycan Respublikası Maliyyə Monitorinqi Xidmətinin strukturu" təsdiq edilsin (əlavə olunur).

3. Azərbaycan Respublikası Maliyyə Monitorinqi Xidmətinin (bundan sonra – Xidmət) işçilərinin say həddi 55 ştat vahidi müəyyən edilsin.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

4.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

4.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

4.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

4.4. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

5. Xidmət dövlət qeydiyyatına alınması üçün bu Fərmanın qüvvəyə mindiyi tarixdən üç gün müddətində "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada Azərbaycan Respublikasının Vergilər Nazirliyinə müraciət etsin.

6. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Fərmanın 1-ci hissəsi ilə təsdiq edilmiş Nizamnamənin 5.1-ci bəndində göstərilən məbləğdə maliyyələşməni bir ay müddətində təmin etsin.

7. Müəyyən edilsin ki, Xidmətin İdarə Heyətinin üzvlərinin səlahiyyətlərinə vaxtından əvvəl aşağıdakı əsaslarla xitam verilə bilər:

7.1. öz arzusu ilə;

7.2. Xidmət ləğv edildikdə və ya yenidən təşkil edildikdə;

7.3. qanunvericilik və ya yerli özünüidarəetmə orqanlarına seçildikdə, icra orqanlarına, digər publik hüquqi şəxslərə və ya səhmlərinin (paylarının) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərə, habelə hakim təyin edildikləri halda həmin vəzifələrdən imtina etmədikdə;

7.4. qanunvericilikdə daha uzun müddət müəyyən edilməyibsə, əmək qabiliyyətinin fasiləsiz olaraq altı aydan çox müddətə tam itirilməsi ilə əlaqədar əmək funksiyasını yerinə yetirə bilmədikdə;

7.5. məhkəmənin qanuni qüvvəyə minmiş ittiham hökmü və ya tibbi xarakterli məcburi tədbirlərin tətbiqinə dair qanuni qüvvəyə minmiş qərarı olduqda;

7.6. Azərbaycan Respublikası vətəndaşlığına xitam verildikdə;

7.7. vəfat etdikdə, habelə məhkəmə onu xəbərsiz itkin düşmüş hesab etdikdə və ya ölmüş elan etdikdə;

7.8. özünün vəzifə funksiyalarını və ya vəzifə üzrə öhdəliklərini yerinə yetirmədikdə, yaxud Azərbaycan Respublikası Əmək Məcəlləsinin 72-ci maddəsində sadalanan hallarda əmək vəzifələrini kobud surətdə pozduqda.

8. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 18 iyul 2018-ci il
№ 215

Azərbaycan Respublikası Prezidentinin
2018-ci il 18 iyul tarixli 215 nömrəli Fərmanı
ilə
təsdiq edilmişdir

## Azərbaycan Respublikası Maliyyə Monitorinqi Xidmətinin

## NİZAMNAMƏSİ

### 1. Ümumi müddəalar

1.1. Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidməti (bundan sonra – Xidmət) Azərbaycan Respublikasında cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasının və terrorçuluğun maliyyələşdirilməsinin qarşısını almaq sahəsində (bundan sonra – müvafiq sahə) vahid tənzimləməni və nəzarəti həyata keçirən, fəaliyyəti əlaqələndirən, *habelə müvafiq sahədə siyasətin formalaşmasında iştirak edən* publik hüquqi şəxsdir.[1]

1.2. Xidmət öz fəaliyyətində müstəqildir və Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, Azərbaycan Respublikasının qanunlarını, bu Nizamnaməni, Azərbaycan Respublikası Prezidentinin digər fərmanlarını, həmçinin sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, digər normativ hüquqi aktları rəhbər tutur.

1.3. Xidmət öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən digər dövlət və yerli özünüidarəetmə orqanları, beynəlxalq və qeyri-hökumət təşkilatları ilə, digər hüquqi və fiziki şəxslərlə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

1.4. Xidmət ümumdövlət və ictimai əhəmiyyət daşıyan fəaliyyətlə məşğul olur.

1.5. Xidmət sahibkarlıq fəaliyyəti ilə məşğul ola bilməz. Onun əsas məqsədi mənfəət götürmək deyildir.

1.6. Xidmətin müstəqil balansı, əmlakı, xəzinə və bank hesabları, öz adı həkk olunmuş möhürü, müvafiq ştampları və blankları vardır.

1.7. Qanuna uyğun olaraq, Xidmətin əqdlər bağlamaq, öz adından əmlak və qeyri-əmlak hüquqları əldə etmək və həyata keçirmək hüququ, həmçinin vəzifələri vardır, o, məhkəmədə iddiaçı və ya cavabdeh qismində çıxış edir.

1.8. Xidmət Bakı şəhərində yerləşir.

## 2. Xidmətin fəaliyyətinin məqsədi və fəaliyyət istiqamətləri

2.1. Xidmətin fəaliyyətinin əsas məqsədi Azərbaycan Respublikasında cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasının və terrorçuluğun maliyyələşdirilməsinin qarşısını almaq üçün qanunla müəyyənləşdirilmiş tələblərə riayət olunmasına nəzarət etmək, müvafiq sahədə vahid tənzimləməni həyata keçirmək, habelə monitorinq iştirakçılarının, monitorinqdə iştirak edən digər şəxslərin, nəzarət və digər dövlət orqanlarının fəaliyyətini əlaqələndirmək, şəffaflığı və səmərəliliyi təmin etməkdir. Xidmət bu Nizamnamədə müəyyən edilmiş fəaliyyəti həyata keçirərkən müvafiq sahədə qabaqcıl beynəlxalq standartları əsas götürür.

2.2. Müvafiq sahədə Xidmətin fəaliyyət istiqamətləri aşağıdakılardır:

2.2.1. vahid siyasətin formalaşmasında və bu siyasətin həyata keçirilməsində iştirak etmək;

2.2.2. tənzimləməni və *qüvvədə olan qanunvericiliyə əməl edilməsinə* nəzarəti həyata keçirmək;[2]

2.2.3. milli risk qiymətləndirilməsini həyata keçirmək, bu istiqamətdə dövlət orqanlarının və qurumlarının fəaliyyətini əlaqələndirmək;

2.2.4. monitorinq iştirakçılarının, monitorinqdə iştirak edən digər şəxslərin, nəzarət və digər dövlət orqanlarının fəaliyyətini əlaqələndirmək, onlardan daxil olan məlumatları toplamaq və təhlil etmək;

2.2.5. vahid informasiya sisteminin tətbiqini təmin etmək;

2.2.6. normativ xarakterli aktlar qəbul etmək və müvafiq hüquqi aktların layihələrinin hazırlanmasında iştirak etmək;

2.2.7. müvafiq sahənin inkişafını təmin etmək.

## 3. Xidmətin vəzifələri və hüquqları

3.1. Bu Nizamnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq, Xidmətin vəzifələri aşağıdakılardır:

3.1.1. "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında"

Azərbaycan Respublikasının Qanununa (bundan sonra – Qanun) uyğun olaraq müvafiq sahədə monitorinqi həyata keçirmək, monitorinq iştirakçılarından və monitorinqdə iştirak edən digər şəxslərdən, açıq və digər mənbələrdən məlumat almaq, toplamaq və təhlil etmək, habelə nəticələrinə əsasən tədbirlər görmək;

3.1.2. müvafiq sahədə normativ xarakterli aktlar qəbul etmək;

3.1.3. cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizənin vəziyyətini öyrənmək, təhlil etmək, bununla bağlı təklif və tövsiyələr hazırlamaq;

3.1.4. monitorinq olunmalı əməliyyatların aşkarlanması meyarlarını (xüsusi indikatorları) müəyyən etmək;

3.1.5. monitorinq iştirakçılarının və monitorinqdə iştirak edən digər şəxslərin Qanunda nəzərdə tutulmuş məlumatları Xidmətə təqdim etməsi qaydasını müəyyən etmək;

3.1.6. Qanuna uyğun olaraq, sadələşdirilmiş eyniləşdirilmə və verifikasiya qaydasını müəyyən etmək;

3.1.7. Qanuna uyğun olaraq, monitorinq iştirakçılarının Xidmətə məlumat təqdim etməli olduqları pul vəsaitləri və ya digər əmlakla əməliyyatların siyahısını və ümumi məbləğinin minimal həddini müəyyən etmək;

3.1.8. Qanuna uyğun olaraq, Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının aidiyyəti qətnamələrinə, habelə Azərbaycan Respublikasının qanunvericiliyinə və tərəfdar çıxdığı beynəlxalq müqavilələrə əsasən Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi qaydada şəxslərin siyahısını təsdiq və dərc etmək, həmçinin bu siyahını birbaşa və ya müvafiq nəzarət orqanları vasitəsilə monitorinq iştirakçılarına və monitorinqdə iştirak edən digər şəxslərə göndərmək;

3.1.9. cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasında, terrorçuluğun maliyyələşdirilməsində, transmilli mütəşəkkil cinayətkarlığı, habelə silahlı separatizmi, ekstremizmi və muzdluluğu dəstəkləməkdə, narkotik vasitələrin və ya psixotrop maddələrin qanunsuz dövriyyəsində iştirakı ehtimal olunan, maliyyə əməliyyatlarının aparılması zamanı eyniləşdirmə məlumatlarının açıqlanması tələb olunmayan dövlətlərin siyahısını Azərbaycan Respublikası Nazirlər Kabinetinin təsdiq etdiyi qaydada müəyyənləşdirmək və dərc etmək, həmçinin bu siyahını birbaşa və ya müvafiq nəzarət orqanları vasitəsilə monitorinq iştirakçılarına və monitorinqdə iştirak edən digər şəxslərə göndərmək;

3.1.10. monitorinq iştirakçılarının və monitorinqdə iştirak edən digər şəxslərin yaratdıqları daxili nəzarət sistemlərinin hazırlanmasına, habelə daxili nəzarət sisteminin təşkili üçün məsul şəxslərin peşə ixtisasına və təcrübəsinə dair tələbləri müəyyən etmək;

3.1.11. lombardların və daşınmaz əmlak alqı-satqısı üzrə vasitəçilik xidmətləri göstərən fiziki və ya hüquqi şəxslərin Qanunun tələblərinə əməl etmələrinə nəzarəti təmin etmək, bu nəzarətin həyata keçirilməsi qaydasını müəyyən etmək;

3.1.12. aidiyyəti dövlət orqanları ilə razılaşdırılmaqla, cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılması və ya terrorçuluğun maliyyələşdirilməsi ilə bağlı hüquqpozmalar barədə statistik məlumatların təqdimolunma formasını müəyyən etmək;

3.1.13. cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və ya terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında qanunvericiliyin pozulması ilə bağlı inzibati xəta əlamətlərini aşkar etdikdə Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə uyğun olaraq tədbirlər görmək;

3.1.14. aparılmış təhlil nəticəsində həyata keçirilən əməliyyatda cinayət əlamətlərinin olduğunu müəyyən etdikdə, cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılması ilə bağlı məlumatları prokurorluq orqanlarına, terrorçuluğun maliyyələşdirilməsi ilə bağlı məlumatları Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətinə təqdim etmək və görülmüş tədbirlər barədə həmin orqanlardan informasiya almaq;

3.1.15. monitorinq iştirakçılarının və monitorinqdə iştirak edən digər şəxslərin Qanunun tələblərinə əməl etməmələrinə dair məlumat əldə etdikdə həmin məlumatı göstərilən şəxslərə qarşı inzibati və ya qanunvericilikdə nəzərdə tutulmuş digər tədbirlərin tətbiq edilməsi üçün müvafiq nəzarət orqanlarına təqdim etmək və görülmüş tədbirlər barədə həmin orqanlardan informasiya almaq;

3.1.16. aşağıdakı məqsədlərlə mərkəzləşdirilmiş elektron-informasiya sistemlərinin təşkilini təmin etmək:

1. müvafiq sahədə təqdim olunan məlumatların vahid şəkildə toplanması;

2. cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasında və terrorçuluğun maliyyələşdirilməsində iştirakı barədə Xidmətin məlumatı olan hüquqi və fiziki şəxslərin qeydiyyata alınması;

3. cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi hallarının xüsusi indikatorlar əsasında müəyyən edilməsi;

4. cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi risklərinin, tipologiyalarının və trendlərinin strateji təhlili;

*3.1.16-1. "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə əməl edilməsinə nəzarətin həyata keçirilməsi, o cümlədən cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində siyasətin formalaşmasında iştirak etmək və risklərin qiymətləndirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 28 oktyabr tarixli 138 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Əsasnaməsi"nin 5.8-2-ci bəndinə əsasən təqdim edilmiş statistikadan istifadə etmək;* [3]

3.1.17. qanunla müəyyən edilmiş qaydada yoxlamaların aparılmasını təmin etmək və hesabatlar almaq;

3.1.18. müvafiq sahədə beynəlxalq təcrübəni öyrənmək, səmərəli üsul və vasitələrin tətbiqi ilə bağlı təkliflər vermək, fəaliyyət istiqamətlərinə uyğun olaraq Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin həyata keçirilməsində iştirak etmək və beynəlxalq öhdəliklərinin icrasını təmin etmək;

3.1.19. Qanuna əsasən təqdim edilmiş məlumatın terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə çərçivəsində barəsində sanksiya tətbiq edilməli

olan şəxsə, habelə həmin şəxsin sahibliyində və ya nəzarətində olan hüquqi şəxsə, o cümlədən bu şəxsin adından və ya onun tapşırığı ilə fəaliyyət göstərən fiziki və ya hüquqi şəxsə aid olduğu müəyyən edildiyi halda aktivlərin ilkin dondurulması haqqında qərar qəbul etmək;

3.1.20. müvafiq sahə ilə bağlı statistik hesabatlar hazırlamaq;

3.1.21. müvafiq sahədə monitorinq iştirakçılarının və monitorinqdə iştirak edən digər şəxslərin təqdim etdikləri məlumatların müqabilində onları əldə edilmiş nəticələr haqqında məlumatlandırmaq;

3.1.22. Xidmətə ayrılan maliyyə vəsaitindən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin etmək;

3.1.23. dövlət və kommersiya sirrinin, qanunla mühafizə edilən və açıqlanması qadağan olunan digər məlumatların, habelə məxfilik rejiminin və fəaliyyəti zamanı əldə edilmiş digər məlumatların qorunması üçün tədbirlər görmək;

3.1.24. cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi ilə bağlı dövlət orqanları və qurumlarının sorğularını qanunla müəyyən olunmuş qaydada və müddətdə cavablandırmaq;

3.1.25. arxiv sənədlərinin qanunla müəyyən edilmiş qaydada ~~saxlanılmasını və~~ mühafizəsini təmin etmək;[4]

3.1.26. beynəlxalq təcrübə nəzərə alınmaqla, Xidmətin fəaliyyətində müasir informasiya və kommunikasiya texnologiyalarının tətbiqi ilə bağlı tədbirlər görmək;

3.1.27. kargüzarlığı, vətəndaşların qəbulunu, onların təklif, ərizə və müraciətlərinə baxılmanı normativ hüquqi aktların tələblərinə uyğun təşkil etmək, kadrların əlavə təhsili və peşəkarlığının yüksəldilməsi üçün tədbirlər görmək;

3.1.28. istifadəsində olan dövlət əmlakından səmərəli istifadə olunmasını təmin etmək;

3.1.29. işçilərinin xarici ölkələrə təlim və təcrübə mübadiləsi səfərlərini təşkil etmək;

3.1.30. öz fəaliyyəti ilə bağlı əhalinin məlumatlandırılmasını, habelə müvafiq sahədə həyata keçirilmiş tədbirlərə, statistik göstəricilərə dair hesabatların və digər dövri hesabatların dərc edilməsini, internet saytının yaradılmasını, malik olduğu və siyahısı "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş açıqlanmalı olan ictimai informasiyanın həmin saytda yerləşdirilməsini və bu informasiyanın daim yenilənməsini təmin etmək;

3.1.31. strukturunun və fəaliyyətinin təkmilləşdirilməsi üçün tədbirlər görmək;

3.1.32. *Xidmətin Nizamnaməsi* ilə müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.[5]

3.2. Bu Nizamnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq, Xidmətin aşağıdakı hüquqları vardır:

3.2.1. müvafiq sahədə normativ hüquqi aktların hazırlanmasında və təkmilləşdirilməsində iştirak etmək;

3.2.2. müvafiq sahədə tədqiqatlar aparmaq, analitik və metodiki materiallar hazırlamaq və bu sahənin inkişafı ilə bağlı təkliflər vermək;

3.2.3. Qanunla nəzərdə tutulmuş qaydada pul vəsaitləri və ya digər əmlakla əməliyyat aparılmasını dayandırmaq, müvafiq sahədə icrası məcburi olan qərarlar qəbul etmək və göstərişlər vermək;

3.2.4. öz vəzifələrinin icrası üçün müvafiq sorğu göndərməklə monitorinq iştirakçılarından, monitorinqdə iştirak edən digər şəxslərdən, nəzarət orqanlarından və Qanuna uyğun olaraq müəyyən olunmuş orqanlardan (qurumlardan) məlumat almaq, habelə təhlil zamanı zərurət yarandığı halda onlardan və digər dövlət orqanlarından əlavə məlumat almaq, cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi ilə əlaqədar daxil olan məlumatların araşdırılması məqsədilə (o cümlədən xarici ölkələrin müvafiq səlahiyyətli orqanları adından) Qanunla müəyyən edilmiş qaydada onların informasiya resurslarından onlayn istifadə etmək;

3.2.5. dövlət orqanları və qurumlarına, yerli özünüidarəetmə orqanlarına, hüquqi və fiziki şəxslərə zəruri məlumatlar (sənədlər) barədə sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq;

3.2.6. Azərbaycan Respublikasının qanunvericiliyinə və ya Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə müvafiq qaydada Qanunun 20.1-ci maddəsində qeyd olunan məlumatlara dair xarici ölkələrin müvafiq səlahiyyətli orqanlarına sorğular vermək, habelə onların müvafiq sorğusu və ya öz təşəbbüsü əsasında göstərilən məlumatları təqdim etmək;

3.2.7. fəaliyyət istiqamətləri üzrə Azərbaycan Respublikasının digər ölkələrlə və beynəlxalq təşkilatlarla əlaqələrini təmin etmək, beynəlxalq təşkilatlarda Azərbaycan Respublikasını təmsil etmək, ixtisaslaşmış beynəlxalq qurumlara üzv olmaq;

3.2.8. digər ölkələrin səlahiyyətli orqanları ilə müvafiq ikitərəfli sazişlərin şərtlərinə, Azərbaycan Respublikasının üzv olduğu beynəlxalq təşkilatların prinsiplərinə uyğun qaydada və ya qarşılıq prinsipi əsasında (Azərbaycan Respublikasının səlahiyyətli orqanları üçün tətbiq olunan öhdəliklərin, o cümlədən məxfilik öhdəlikləri və şərtlərini eyni səviyyədə xarici ölkələrin müvafiq orqanlarının qəbul etməsi şərtilə) əməkdaşlıq etmək, həmçinin məlumat mübadiləsini həyata keçirmək;

3.2.9. Azərbaycan Respublikasının beynəlxalq təşkilatlara üzvlükdən irəli gələn öhdəliklərinə, tərəfdar çıxdığı beynəlxalq müqavilələrinə və bu Nizamnamənin 3.2.8-ci yarımbəndində nəzərdə tutulan müqavilələrinə uyğun olaraq xarici ölkələrin müvafiq səlahiyyətli orqanları vasitəsilə əldə edilmiş hər hansı məlumatın üçüncü tərəflərə açıqlanması üçün həmin səlahiyyətli orqanlardan icazə alınmasını, habelə onların müvafiq sorğusu və ya öz təşəbbüsü əsasında təqdim edilən məlumatların üçüncü tərəflərə açıqlanması üçün icazə verilməsini təmin etmək;

3.2.10. dövlətin (hökumətin) adından öhdəlik götürməmək şərtilə, xarici ölkələrin müvafiq səlahiyyətli orqanları ilə əməkdaşlıq barədə, o cümlədən məlumat mübadiləsi haqqında müqavilələr bağlamaq;

3.2.11. Azərbaycan Respublikası Prezidentinin verdiyi səlahiyyətlər çərçivəsində beynəlxalq müqavilələr bağlamaq və onlardan irəli gələn öhdəlikləri yerinə yetirmək;

3.2.12. müvafiq sahə üzrə Azərbaycan Respublikasının beynəlxalq müqavilələrə tərəfdar çıxması barədə təşəbbüslə çıxış etmək, Azərbaycan Respublikasının bu sahədə iştirakı ilə bağlı materiallar toplamaq, onları ümumiləşdirmək və təhlil etmək;

3.2.13. fəaliyyət istiqamətlərinə uyğun olaraq, konfranslar, müşavirələr, seminarlar, treninqlər keçirmək və digər tədbirlər təşkil etmək, həmçinin belə tədbirlərdə iştirak etmək;

3.2.14. səlahiyyətlərinə aid edilmiş məsələlərin işlənib hazırlanması və yerinə yetirilməsi üçün işçi qruplar və komissiyalar yaratmaq, onların işində iştirak etmək, xarici və yerli ekspertləri və mütəxəssisləri öz işinə cəlb etmək, habelə müstəqil araşdırmalar aparılmasını sifariş etmək;

3.2.15. xüsusi bülletenlər və digər nəşrlər buraxmaq;

3.2.16. fəaliyyət istiqamətlərinə aid məsələlərlə bağlı araşdırmalar aparılması, məsləhət xidmətləri göstərilməsi üçün elmi tədqiqat və təhsil müəssisələri ilə əməkdaşlıq etmək;

3.2.17. dövlət orqanları ilə, hüquqi şəxslərlə və beynəlxalq təşkilatlarla müvafiq sahədə əməkdaşlıq etmək;

3.2.18. Xidmətin, monitorinq iştirakçılarının, monitorinqdə iştirak edən digər şəxslərin və nəzarət orqanları əməkdaşlarının peşəkarlıq səviyyəsinin artırılması üçün müvafiq tədbirlər həyata keçirmək, onların zəruri təhsil və treninq proqramlarında iştirakını təşkil etmək;

3.2.19. *Xidmətin Nizamnaməsi* ilə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

## 4. Xidmətin idarə olunması

4.1. Xidmət öz fəaliyyətində və idarəetmədə mütərəqqi korporativ idarəetmə standartlarını tətbiq edir.

4.2. Xidmətin idarəetmə orqanı İdarə Heyətidir.

4.3. İdarə Heyəti Xidmətə rəhbərliyi və nəzarəti həyata keçirir. İdarə Heyətinin tərkibi üç üzvdən - *İdarə Heyətinin sədrindən* və onun iki müavinindən ibarətdir. İdarə Heyətinin sədrini və onun müavinlərini *Azərbaycan Respublikasının İqtisadiyyat nazirinin təqdimatı ilə* Azərbaycan Respublikasının Prezidenti vəzifəyə təyin və vəzifədən azad edir. İdarə Heyətinin səlahiyyət müddəti 5 ildir. [6]

4.4. İdarə Heyətinin sədri müvəqqəti olmadıqda, onu müvafiq əmrlə müavinlərindən biri əvəz edir.

4.5. İdarə Heyəti aşağıdakı vəzifələri yerinə yetirir:

4.5.1. Xidmətin inkişaf istiqamətlərini, *strateji məqsədlərini və planlarını* müəyyən edir; [7]

4.5.2. təsisçinin səlahiyyətlərini həyata keçirmək üçün Azərbaycan Respublikasının *İqtisadiyyat Nazirliyinə (bundan sonra – Nazirlik)* təkliflər verir və sənədlər təqdim edir; [8]

4.5.3. Xidmətin fəaliyyətinə dair illik hesabat hazırlayaraq Azərbaycan Respublikasının Prezidentinə təqdim edir;

4.5.4. Xidmətin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı hüquqi aktların layihələrinə baxır, həmin layihələri aidiyyəti dövlət orqanlarına və qurumlarına təqdim edir;

*4.5.4-1. Xidmətin strateji məqsədlərinin və planlarının, habelə büdcəsinin icrasına nəzarət edir;* [9]

*4.5.4-2. Azərbaycan Respublikası Prezidentinin razılığı ilə Xidmətin idarə, filial və nümayəndəliklərinin yaradılması barədə qərar qəbul edir;*

4.5.5. bu Nizamnamənin 3.1.22-ci yarımbəndində nəzərdə tutulmuş vəsaitdən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin edir;

4.5.6. İdarə Heyəti üzvlərinin müraciətlərinə baxır və qərar qəbul edir;

4.5.7. *Xidmətin maliyyə planlaşdırılmasını və büdcəsini* təsdiq edir;[10]

4.5.8. Xidmətin fəaliyyətinə dair daxili qaydaları, vəzifə təlimatlarını və struktur bölmələrinin əsasnamələrini təsdiq edir;

4.5.9. İdarə Heyətinin və əməkdaşların fəaliyyəti zamanı maraqlar münaqişəsinin istisna olunmasının *Qanunun 17-1-ci maddəsinin tələblərini nəzərə almaqla Nazirliyin müəyyən etdiyi qayda və şərtlərinin* icrasına nəzarət edir;[11]

4.5.10. *Nazirliyin* razılığı ilə Xidmətin xalis aktivlərinin dəyərinin 25 faizindən artıq məbləğdə olan əqdin (xüsusi əhəmiyyətli əqdin) və aidiyyəti şəxslə dəyəri Xidmətin aktivlərinin 5 faizini və daha çox hissəsini təşkil edən əqdin bağlanması haqqında qərar qəbul edir;[12]

4.5.11. aidiyyəti şəxslə dəyəri Xidmətin aktivlərinin 5 faizədək hissəsini təşkil edən əqdin bağlanması haqqında qərar qəbul edir;

~~4.5.12. Xidmətin maliyyə-təsərrüfat fəaliyyətinin auditinin keçirilməsi üçün kənar auditoru təyin edir və audit hesabatını qəbul edir;~~[13]

4.5.13. *Xidmətin maliyyə-təsərrüfat fəaliyyətinin auditinin keçirilməsi üçün təyin edilmiş* kənar auditorun yoxlamalarının, habelə digər yoxlamaların nəticələrinə dair tədbirlər görür;[14]

4.5.14. Xidmətin normativ xarakterli aktlarını təsdiq edir;

*4.5.15. İdarə Heyəti sədrinin səlahiyyətlərinə aid edilməyən bütün digər məsələlər barədə qərar qəbul edir.*[15]

4.6. İdarə Heyətinin iclasları ayda bir dəfədən az olmayaraq çağırılır. İdarə Heyətinin iclaslarının keçirilməsi təşəbbüsü ilə İdarə Heyətinin üzvü çıxış edir. İdarə Heyətinin iclasları İdarə Heyəti üzvlərinin *yarıdan çoxu* iştirak etdikdə səlahiyyətlidir. İdarə Heyətinin iclasları müvafiq qaydada protokollaşdırılır və müzakirə edilmiş məsələlərə dair qərarlar qəbul edilir. İdarə Heyətinin iclasında hər üzvün bir səsi olmaqla, qərarlar sadə səs çoxluğu ilə qəbul edilir. Səslərin sayı bərabər bölünərsə, İdarə Heyəti sədrinin (və ya onu əvəz edən digər üzvün) səsi həlledici sayılır. Səsvermə zamanı üzvlərin bitərəf qalmasına icazə verilmir. *İdarə Heyətinin üzvlərinə iclasın keçiriləcəyi yer və vaxt, habelə gündəliyə daxil edilmiş məsələlər barədə iclasa azı 3 iş günü qalmış, zəruri sənədlər əlavə edilməklə yazılı məlumat verilir. İclasın gündəliyinə İdarə Heyətinin hər hansı üzvünün maraqlarına toxunan məsələ çıxarıldıqda, həmin üzv bununla bağlı maraqları haqqında ətraflı məlumat verməli, həmin məsələnin müzakirəsində və ona dair səsvermədə iştirak etməməlidir. Gündəliyə daxil edilməmiş və ya tələb olunan aidiyyəti sənədləri iclasdan qabaq təqdim edilməmiş məsələlər barədə, bütün iştirakçı üzvlərin razılıq verdiyi hallar istisna olmaqla, qərar qəbul edilə bilməz.*[16]

4.7. İdarə Heyətinin sədri:

4.7.1. Xidmətin işini təşkil edir və *ona nəzarət edir, habelə* fəaliyyətinə rəhbərliyi həyata keçirir;[17]

4.7.2. İdarə Heyətinin fəaliyyətini təşkil edir, iclaslarının gündəliyini müəyyənləşdirir və iclaslarına sədrlik edir;

4.7.3. etibarnamə təqdim etmədən Azərbaycan Respublikasının və xarici ölkələrin dövlət orqanları və qurumları ilə və digər şəxslərlə münasibətlərdə Xidməti təmsil edir, verilmiş səlahiyyətlər daxilində xarici ölkələrin müvafiq dövlət orqanları ilə və beynəlxalq təşkilatlarla danışıqlar aparır, beynəlxalq danışıqlarda iştirak edir, *qanunvericiliklə* müəyyən edilmiş qaydada beynəlxalq sənədləri imzalayır;[18]

4.7.4. bu Nizamnamə ilə müəyyən edilmiş hallar istisna olmaqla, Xidmət işçilərinin vəzifəyə təyin və vəzifədən azad edilməsi, onlar barəsində həvəsləndirmə və intizam tənbehi tədbirlərinin görülməsi barədə qərarlar qəbul edir;

4.7.5. Xidmətin fəaliyyətinin təşkili ilə əlaqədar icrası məcburi olan daxili sərəncam və əmrlər verir;

4.7.6. Xidmətin normativ xarakterli aktlarının icrasını təşkil edir və icrasına nəzarəti həyata keçirir;

4.7.7. Xidmətin fəaliyyət istiqamətlərinə dair qəbul olunmuş aktların icrasını təşkil edir, yoxlayır və buna nəzarəti həyata keçirir;

4.7.8. Xidmətin vəzifəli şəxslərinin qanunvericiliyə zidd olan qərarlarını ləğv edir;

4.7.9. öz təşəbbüsü ilə və ya İdarə Heyətinin digər üzvünün təşəbbüsü ilə İdarə Heyətinin iclaslarını çağırır;

4.7.10. öz təşəbbüsü ilə, habelə İdarə Heyətinin hər hansı digər üzvünün xahişi əsasında digər şəxsləri İdarə Heyətinin iclasında iştirak etməyə dəvət edir;

4.7.11. Xidmətin əmlakından bu Nizamnamədə nəzərdə tutulmuş məqsədlərə uyğun istifadə olunmasına nəzarət edir;

4.7.12. bu Nizamnamə ilə müəyyən olunmuş səlahiyyətlər çərçivəsində Xidmətin adından əməliyyatlar aparır, müqavilələr bağlayır və onların yerinə yetirilməsini təmin edir;

*4.7.12-1. müəyyən edilmiş struktur, əməkhaqqı fondu və işçilərin say həddi daxilində Xidmətin Aparatının strukturunu, ştat cədvəlini, işçilərinin əməkhaqlarını (o cümlədən əməkhaqqına əlavələri, mükafatları və digər ödənişləri) və xərclər smetasını təsdiq edir;*[19]

*4.7.12-2. Xidmət işçilərinin əməkhaqlarının, əməkhaqqına əlavələrin, mükafatların və digər ödənişlərin verilməsini əməkhaqqı fondu çərçivəsində təşkil edir;*

*4.7.12-3. Xidmətin maliyyə-təsərrüfat fəaliyyətinin auditinin keçirilməsi üçün kənar auditoru təyin edir və audit hesabatını qəbul edir;*

4.7.13. Xidmətin fəaliyyət istiqamətləri ilə bağlı dövlət sirrinin və məxfilik rejiminin qorunması üçün zəruri tədbirlər görür;

4.7.14. Xidmətin fəaliyyət istiqamətlərinə uyğun olaraq, məşvərətçi komitələr və işçi qruplar yaradır;

4.7.15. Xidmətin fəaliyyəti ilə əlaqədar bütün sənədləri (məktubları) imzalayır;

4.7.16. İdarə Heyətinin fəaliyyətinin təşkili ilə bağlı digər tədbirlər görür;

4.7.17. Xidmətdə kargüzarlıq və arxiv işinin aparılmasını təmin edir;

4.7.18. Xidmətdə vətəndaşların qəbulunu və müraciətlərinə baxılmanı təmin edir.

4.8. İdarə Heyətinin üzvləri:

4.8.1. İdarə Heyətinin səlahiyyətlərinə aid olan məsələlərin həllində iştirak edirlər;

4.8.2. İdarə Heyətinin iclasının gündəliyi ilə və baxılması nəzərdə tutulmuş materiallarla əvvəlcədən tanış olurlar;

4.8.3. İdarə Heyətinin qəbul ediləcək qərarlarına dair fikir bildirirlər;

4.8.4. İdarə Heyətinin səlahiyyətlərinə aid məsələlərə İdarə Heyətinin iclaslarında baxılması barədə təkliflər verirlər;

4.8.5. İdarə Heyətinin qərarları ilə, iclas protokolları ilə və digər sənədlərlə tanış olurlar.

4.9. İdarə Heyətinin üzvləri İdarə Heyətinin iclaslarında baxılan məsələlərə qərəzsiz yanaşmalı, İdarə Heyəti üzvünün adına xələl gətirə biləcək hərəkətlərə və çıxışlara yol verməməlidirlər.

4.10. Xidmətin işçiləri (o cümlədən İdarə Heyətinin sədri):

4.10.1. elmi, yaradıcılıq fəaliyyəti və İdarə Heyəti sədrinin, İdarə Heyəti sədri isə Azərbaycan Respublikası Prezidentinin razılığı ilə pedaqoji fəaliyyət istisna olmaqla, başqa ödənişli fəaliyyətlə məşğul ola bilməzlər;

4.10.2. İdarə Heyətinin sədrinə, İdarə Heyətinin sədri isə Azərbaycan Respublikasının Prezidentinə bildirmədən xarici ölkənin və ya beynəlxalq təşkilatın vəsaiti hesabına xarici ölkəyə səfər edə bilməzlər;

4.10.3. vəzifələrinin icrası ilə əlaqədar dövlət sirri və ya qanunla mühafizə edilən digər sirr də daxil olmaqla onlara məlum olan və qulluq fəaliyyətinə dair məlumatı həmişə, o cümlədən Xidmətlə əmək münasibətlərinə xitam verildikdən sonra da saxlamalı, həmin məlumatdan üçüncü şəxslərin xeyrinə istifadə etməməli və qanunla müəyyənləşdirilmiş hallar istisna olmaqla, bu məlumatı açıqlamamalıdırlar;

4.10.4. vəzifələrini yerinə yetirərkən və ya qərar qəbul edərkən qərəzsiz olmalı və bu zaman irqinə, etnik mənsubiyyətinə, dininə, dilinə, cinsinə, sosial mənşəyinə, əmlak və qulluq vəziyyətinə, əqidəsinə, ictimai və ya hər hansı digər birliyə mənsubiyyətinə görə hər hansı şəxsin və ya şəxslər qrupunun üstünlüyünə və ya belə üstünlüyün əldə edilməsi üçün şərait yaradılmasına yol verməməlidirlər.

4.11. Xidmətin işçiləri (o cümlədən İdarə Heyətinin sədri) xidməti vəzifələrini həyata keçirərkən hər hansı hərəkəti və ya hərəkətsizliyi nəticəsində yaranmış zərər üçün məsuliyyət daşımırlar, bu şərtlə ki, həmin hərəkətin və ya hərəkətsizliyin qanunsuz və ya vicdansız olduğu sübuta yetirilməsin.

4.12. Bu Nizamnamənin 4.10-cu və 4.11-ci bəndində nəzərdə tutulan tələblər Azərbaycan Respublikasının Əmək Məcəlləsinə əsasən işçilərlə bağlanılan əmək müqaviləsində öz əksini tapmalıdır.

4.13. Xidmətin işçiləri ilə bağlanılan əmək müqavilələrində Xidmətin işçilərinə münasibətdə bu Nizamnamənin 4.12-ci bəndində nəzərdə tutulanlardan əlavə digər tələblər də müəyyən edilə bilər.

4.14. Xidmət öz işçilərinin sosial müdafiəsi məqsədilə əlavə tədbirlər görə bilər.

4.15. Bu Nizamnamənin tələbləri nəzərə alınmaqla, Xidmətlə əməkdaşlar arasında əmək münasibətləri Azərbaycan Respublikasının Əmək Məcəlləsi ilə tənzimlənir.

### *5. Xidmətin nizamnamə fondu, əmlakı və maliyyə fəaliyyətinin əsasları* [20]

5.1. Xidmətin nizamnamə fondu 10.000 (on min) manatdır.

5.2. Xidmətin əmlakı nizamnamə fondundan, təsisçinin verdiyi digər əmlakdan, həmçinin dövlət büdcəsindən ayrılan vəsaitdən formalaşır.

5.3. Xidmət öz əmlakından yalnız bu Nizamnamədə müəyyən olunmuş məqsədlərə uyğun istifadə edir. Xidmət balansında olan dövlət əmlakına münasibətdə səlahiyyətlərini müvafiq qanunvericiliklə müəyyən edilmiş qaydada həyata keçirir.

5.4. Xidmət qanunla nəzərdə tutulmuş vergiləri və digər məcburi ödənişləri ödədikdən sonra fəaliyyətindən əldə edilmiş vəsait üzərində müstəqil sərəncam vermək hüququna malikdir.

5.5. İdarə Heyəti sədrinin aylıq vəzifə maaşı və digər təminatları Azərbaycan Respublikası Mərkəzi Bankı sədrinin birinci müavininin, İdarə Heyətinin digər üzvlərinin aylıq vəzifə maaşları və digər təminatları Azərbaycan Respublikası Mərkəzi Bankı sədrinin müavininin, Xidmətin əməkdaşlarının aylıq vəzifə maaşları və digər təminatları isə Azərbaycan Respublikası Mərkəzi Bankı əməkdaşlarının aylıq vəzifə maaşlarına və digər təminatlarına bərabər tutulur.

## 6. Xidmətin fəaliyyətinə nəzarətin forması, əhatə dairəsi və hesabatlılıq

*6.1. Xidmət, fəaliyyət müstəqilliyi təmin edilməklə, Nazirliyin tərkibində fəaliyyət göstərir.*[21]

6.2. Xidmətin fəaliyyətinə dair illik hesabat Azərbaycan Respublikasının Prezidentinə təqdim edilir.

## 7. Xidmətdə uçot və hesabat

7.1. Xidmət "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə publik hüquqi şəxslər üçün müəyyən edilmiş qaydada mühasibat uçotu aparır, maliyyə hesabatlarını tərtib, təqdim və dərc edir.

7.2. Xidmət "Rəsmi statistika haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq statistik uçot aparır, statistik hesabatları tərtib və təqdim edir.

7.3. Xidmət idarə, filial, nümayəndəlik və təsərrüfat cəmiyyətlərinin, habelə tabeliyindəki digər qurumların maliyyə-təsərrüfat fəaliyyətinin yoxlanılmasını təmin edir.

7.4. Xidmət maliyyə-təsərrüfat fəaliyyətinin müstəqil surətdə yoxlanılması üçün kənar auditor cəlb edir.

## 8. Xidmətin ləğvi və yenidən təşkili

Xidmətin ləğvini və yenidən təşkilini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir.

Azərbaycan Respublikası Prezidentinin
2018-ci il 18 iyul tarixli 215 nömrəli Fərmanı
ilə
təsdiq edilmişdir

**Azərbaycan Respublikası Maliyyə Monitorinqi Xidmətinin**

**STRUKTURU**

Azərbaycan Respublikası Maliyyə Monitorinqi Xidmətinin Aparatı (departamentlər və şöbələr).

**İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI**

1. 23 noyabr 2018-ci il tarixli **362** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 24 noyabr 2018-ci il, № 265, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 11, maddə 2275)**
2. 27 iyun 2019-cu il tarixli **758** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 28 iyun 2019-cu il, № 137, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, №6, maddə 1049)**
3. 24 fevral 2020-ci il tarixli **938** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 25 fevral 2020-ci il, № 42, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, № 2, maddə 96)**
4. 18 avqust 2022-ci il tarixli **1811** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Respublikası Prezidentinin rəsmi internet saytı, 18 avqust 2022-ci il, "Xalq" qəzeti, 19 avqust 2022-ci il, № 176, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, №8, maddə 871)**
5. 19 dekabr 2022-ci il tarixli **1910** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Respublikası Prezidentinin rəsmi internet saytı, 19 dekabr 2022-ci il, "Xalq" qəzeti, 20 dekabr 2022-ci il, № 278)**

**FƏRMANA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI**

---

[1] 23 noyabr 2018-ci il tarixli **362** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 24 noyabr 2018-ci il, № 265, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 11, maddə 2275)** ilə "Azərbaycan Respublikası Maliyyə Monitorinqi Xidmətinin Nizamnaməsi"nin 1.1-ci bəndinə "**fəaliyyəti əlaqələndirən**" sözlərindən sonra "**, habelə müvafiq sahədə siyasətin formalaşmasında iştirak edən**" sözləri əlavə edilmişdir.

[2] 24 fevral 2020-ci il tarixli **938** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 25 fevral 2020-ci il, № 42, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, № 2, maddə 96)** ilə "Azərbaycan Respublikası Maliyyə Monitorinqi Xidmətinin Nizamnaməsi"nin 2.2.2-ci yarımbəndində "**tənzimləməni və**" sözlərindən sonra "**qüvvədə olan qanunvericiliyə əməl edilməsinə**" sözləri əlavə edilmişdir.

[3] 23 noyabr 2018-ci il tarixli **362** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 24 noyabr 2018-ci il, № 265, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, №**

**11, maddə 2275)** ilə "Azərbaycan Respublikası Maliyyə Monitorinqi Xidmətinin Nizamnaməsi"nə yeni məzmunda 3.1.16-1-ci yarımbənd əlavə edilmişdir.

24 fevral 2020-ci il tarixli **938** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 25 fevral 2020-ci il, № 42, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, № 2, maddə 96)** ilə "Azərbaycan Respublikası Maliyyə Monitorinqi Xidmətinin Nizamnaməsi"nin 3.1.16-1-ci yarımbəndində "**maliyyələşdirilməsi**" sözü "**maliyyələşdirilməsinə qarşı mübarizə**" sözləri ilə əvəz edilmişdir.

[4] 18 avqust 2022-ci il tarixli **1811** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Respublikası Prezidentinin rəsmi internet saytı, 18 avqust 2022-ci il, "Xalq" qəzeti, 19 avqust 2022-ci il, № 176, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, №8, maddə 871)** ilə "Azərbaycan Respublikası Maliyyə Monitorinqi Xidmətinin Nizamnaməsi"nin 3.1.25-ci yarımbəndindən "**saxlanılmasını və**" sözləri çıxarılmışdır.

[5] 24 fevral 2020-ci il tarixli **938** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 25 fevral 2020-ci il, № 42, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, № 2, maddə 96)** ilə "Azərbaycan Respublikası Maliyyə Monitorinqi Xidmətinin Nizamnaməsi"nin 3.1.32-ci və 3.2.19-cu yarımbəndlərində "**Azərbaycan Respublikası Prezidentinin aktları**" sözləri "**Xidmətin Nizamnaməsi**" sözləri ilə əvəz edilmişdir.

[6] 24 fevral 2020-ci il tarixli **938** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 25 fevral 2020-ci il, № 42, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, № 2, maddə 96)** ilə "Azərbaycan Respublikası Maliyyə Monitorinqi Xidmətinin Nizamnaməsi"nin 4.3-cü bəndin ikinci cümləsində "**İdarə Heyəti sədrindən**" sözləri "**Azərbaycan Respublikasının İqtisadiyyat nazirinin müavini ─ İdarə Heyətinin sədrindən (bundan sonra - İdarə Heyətinin sədri)**" sözləri ilə əvəz edilmişdir, üçüncü cümləsinə "**müavinlərini**" sözündən sonra "**Azərbaycan Respublikasının İqtisadiyyat nazirinin təqdimatı ilə**" sözləri əlavə edilmişdir.

19 dekabr 2022-ci il tarixli **1910** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Respublikası Prezidentinin rəsmi internet saytı, 19 dekabr 2022-ci il, "Xalq" qəzeti, 20 dekabr 2022-ci il, № 278)** ilə "Azərbaycan Respublikası Maliyyə Monitorinqi Xidmətinin Nizamnaməsi"nin 4.3-cü bəndinin ikinci cümləsində "**– Azərbaycan Respublikasının İqtisadiyyat nazirinin müavini - İdarə Heyətinin sədrindən (bundan sonra - İdarə Heyətinin sədri**)" sözləri "**- İdarə Heyətinin sədrindən**" sözləri ilə əvəz edilmişdir.

[7] 24 fevral 2020-ci il tarixli **938** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 25 fevral 2020-ci il, № 42, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, № 2, maddə 96)** ilə "Azərbaycan Respublikası Maliyyə Monitorinqi Xidmətinin Nizamnaməsi"nin 4.5.1-ci yarımbəndinə "**istiqamətlərini**" sözündən sonra "**, strateji məqsədlərini və planlarını**" sözləri əlavə edilmişdir.

[8] 24 fevral 2020-ci il tarixli **938** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 25 fevral 2020-ci il, № 42, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, № 2, maddə 96)** ilə "Azərbaycan Respublikası Maliyyə Monitorinqi Xidmətinin Nizamnaməsi"nin 4.5.2-ci yarımbəndində "**Prezidentinə**" sözü "**İqtisadiyyat Nazirliyinə (bundan sonra – Nazirlik)**" sözləri ilə əvəz edilmişdir.

[9] 24 fevral 2020-ci il tarixli **938** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 25 fevral 2020-ci il, № 42, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, № 2, maddə 96)** ilə "Azərbaycan Respublikası Maliyyə Monitorinqi Xidmətinin Nizamnaməsi"nə yeni məzmunda 4.5.4-1-ci və 4.5.4-2-ci yarımbəndlər əlavə edilmişdir.

[10] 24 fevral 2020-ci il tarixli **938** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 25 fevral 2020-ci il, № 42, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, № 2, maddə 96)** ilə "Azərbaycan Respublikası Maliyyə Monitorinqi Xidmətinin Nizamnaməsi"nin 4.5.7-ci yarımbəndində "**müəyyən edilmiş əməkhaqqı fondu və işçilərin say həddi daxilində Xidmətin ştat cədvəlini və ayrılmış büdcə təxsisatı daxilində xərclər smetasını**" sözləri "Xidmətin maliyyə planlaşdırılmasını və büdcəsini" sözləri ilə əvəz edilmişdir.

[11] 24 fevral 2020-ci il tarixli **938** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 25 fevral 2020-ci il, № 42, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, № 2, maddə 96)** ilə "Azərbaycan Respublikası Maliyyə Monitorinqi Xidmətinin Nizamnaməsi"nin 4.5.9-cu yarımbəndində "**qayda və şərtlərini müəyyənləşdirir və onların**" sözləri "**Qanunun 17-1-ci maddəsinin tələblərini nəzərə almaqla Nazirliyin müəyyən etdiyi qayda və şərtlərinin**" sözləri ilə əvəz edilmişdir.

[12] 24 fevral 2020-ci il tarixli **938** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 25 fevral 2020-ci il, № 42, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, № 2, maddə 96)** ilə "Azərbaycan Respublikası Maliyyə Monitorinqi Xidmətinin Nizamnaməsi"nin 4.5.10-cu yarımbəndində **"Azərbaycan Respublikası Prezidentinin"** sözləri "**Nazirliyin**" sözü ilə əvəz edilmişdir.

[13] 24 fevral 2020-ci il tarixli **938** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 25 fevral 2020-ci il, № 42, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, № 2, maddə 96)** ilə "Azərbaycan Respublikası Maliyyə Monitorinqi Xidmətinin Nizamnaməsi"nin 4.5.12-ci yarımbəndi ləğv edilmişdir.

[14] 24 fevral 2020-ci il tarixli **938** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 25 fevral 2020-ci il, № 42, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, № 2, maddə 96)** ilə "Azərbaycan Respublikası Maliyyə Monitorinqi Xidmətinin Nizamnaməsi"nin 4.5.13-cü yarımbəndinə "**kənar auditorun**" sözlərindən əvvəl "**Xidmətin maliyyə-təsərrüfat fəaliyyətinin auditinin keçirilməsi üçün təyin edilmiş**" sözləri əlavə edilmişdir.

[15] 24 fevral 2020-ci il tarixli **938** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 25 fevral 2020-ci il, № 42, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, № 2, maddə 96)** ilə "Azərbaycan Respublikası Maliyyə Monitorinqi Xidmətinin Nizamnaməsi"nə yeni 4.5.14-cü yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilmişdir və yeni məzmunda 4.5.15-ci yarımbənd əlavə edilmişdir.

[16] 27 iyun 2019-cu il tarixli **758** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 28 iyun 2019-cu il, № 137, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, №6, maddə 1049)** ilə "Azərbaycan Respublikası Maliyyə Monitorinqi Xidmətinin Nizamnaməsi"nin 4.6-cı bəndinin üçüncü cümləsində "**ən azı ikisi**" sözləri "**yarıdan çoxu**" sözləri ilə əvəz edilmişdir.

24 fevral 2020-ci il tarixli **938** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 25 fevral 2020-ci il, № 42, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, № 2, maddə 96)** ilə "Azərbaycan Respublikası Maliyyə Monitorinqi Xidmətinin Nizamnaməsi"nin 4.6-cı bəndinə yeni məzmunda səkkizinci, doqquzuncu və onuncu cümlələr əlavə edilmişdir.

[17] 24 fevral 2020-ci il tarixli **938** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 25 fevral 2020-ci il, № 42, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, № 2, maddə 96)** ilə "Azərbaycan Respublikası Maliyyə Monitorinqi Xidmətinin Nizamnaməsi"nin 4.7.1-ci yarımbəndinə "**təşkil edir və**" sözlərindən sonra "**ona nəzarət edir, habelə**" sözləri əlavə edilmişdir.

[18] 24 fevral 2020-ci il tarixli **938** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 25 fevral 2020-ci il, № 42, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, № 2,**

**maddə 96)** ilə “Azərbaycan Respublikası Maliyyə Monitorinqi Xidmətinin Nizamnaməsi”nin 4.7.3-cü yarımbəndinə “**iştirak edir,**” sözlərindən sonra “**qanunvericiliklə**” sözü əlavə edilmişdir.

[19] 24 fevral 2020-ci il tarixli **938** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(“Xalq” qəzeti, 25 fevral 2020-ci il, № 42, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, № 2, maddə 96)** ilə “Azərbaycan Respublikası Maliyyə Monitorinqi Xidmətinin Nizamnaməsi”nə yeni məzmunda 4.7.12-1 - 4.7.12-3-cü yarımbəndlər əlavə edilmişdir.

[20] 24 fevral 2020-ci il tarixli **938** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(“Xalq” qəzeti, 25 fevral 2020-ci il, № 42, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, № 2, maddə 96)** ilə “Azərbaycan Respublikası Maliyyə Monitorinqi Xidmətinin Nizamnaməsi”nin 5-ci hissənin adı yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~**5. Xidmətin əmlakının formalaşma mənbələri, maliyyə fəaliyyətinin əsasları**~~

[21] 24 fevral 2020-ci il tarixli **938** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(“Xalq” qəzeti, 25 fevral 2020-ci il, № 42, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, № 2, maddə 96)** ilə “Azərbaycan Respublikası Maliyyə Monitorinqi Xidmətinin Nizamnaməsi”nin 6.1-ci bəndi yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~6.1. Xidmətin fəaliyyətinə nəzarəti Azərbaycan Respublikasının Prezidenti həyata keçirir.~~